

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# "AXİRƏTDƏN GƏLƏN ZƏNG"

**Heç kəsi təkrar etməmək, təzə söz, təzə fikir söyləmək hər hansı bir yazıçını digər yazıçıdan fərqləndirən başlıca xüsusiyyətdir. Vaxtilə Xalq şairi Səməd Vurğun sənətdə özünəməxsusluğu yüksək qiymətləndirir və yazırdı ki, sənətin bir düşməni var - yamsılamaq. Bu mənada "üslub-insandır" və ya "üslub bütün üslubların yaddan çıxarılmasıdır" tezisi hər hansı bir sənətkarın yaradıcılığının spesifikasını müəyyənləşdirən ilkin əlamətdir.**

"Dünyada nə qədər sənətkar varsa, bir o qədər də üslub mövcud olmalıdır" mülahizəsi heç də əbəs yerə deyilməyib.

Sənətkarın üslubu onun yaradıcılığının bütün komponentlərində hiss edilir, duyulur və hətta bunu "görmək" olur.

Hüseynbala Mirələmovun əsərləri ilə tanışlıqda da belə bir məhrəmlik və ünsiyyət yaranır. Təbii ki, burada əsas amil kimi onun fərdi yaradıcılıq üslubunun konkretliyi və müəyyənliyi əsas rol oynayır.

Bu üslubu səciyyələndirən xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirmək olar:

-Fərdi üslubu səciyyələndirən xüsusiyyətlərdən birincisi yazıçının dünyagörüşü ilə bağlıdır. Bu, bədii ədəbiyyatın ən əsas qanunlarından biridir və yaradıcı şəxsiyyətin təsvir etdiyi həyat hadisələrinə, insan obrazlarına münasibətini ifadə edir.

-Yaradıcılıqda tipiklik məsələsi də mühüm amillərdən biridir və bilavasitə fərdi yaradıcılıq üslubu ilə bağlıdır. Məlumdur ki, tipiklik ən vacib estetik kateqoriyalardan biridir, əgər V.Q.Belinskinin sözləri ilə ifadə etmiş olsaq: "Yaradıcılıqda tip-insandır, adamlardır, şəxsiyyətdir, yəni insanın elə təsvir edilməsidir ki, o öz varlığında eyni bir ideyanı ifadə edən bir çox, tam bir dəstə adamları təcəssüm etdirsin.

-Fərdi üslubda ildən-ilə, əsərdən əsərə bir inkişaf xətti nəzərə çarpır. Yaradıcılığın ilk çağları ilə yetkinlik dövrü arasında heç şübhəsiz, müəyyən fərq özünü göstərməlidir. Yaradıcılığın ilkin mərhələsi hansı bir yazıçınınsa təsirinə düşməyi inkar eləmir. Bunu təqlid və yamsılama kimi izah etmək doğru olmazdı, burada təqlid və yamsılamadan daha artıq sənətkarlıq dərslərini mənimsəmə əsas rol oynayır. Lakin yazıçı üçün bu ilkin mərhələdən sonra müstəqil yaradıcılıq yolu başlanır. Və beləliklə, fərdi üslubun müəyyənləşməsi-özünəməxsusluğa çevrilməsi prosesi baş verir.

-Fərdi üslubu və ifadə tərzini müəyyənləşdirən komponentlər sırasında heç şübhəsiz, yazıçının dili, bədii təsvir vasitələri çox mühüm rol oynayır.

Hüseynbala Mirələmovun "aybKitab" layihəsinin nəşri ilə oxuculara təqdim edilən "Axirətdən gələn zəng" kitabındakı bir pyes və iki hekayə ilə tanışlıq da bizdə məhz fərdi üslubu müəyyənləşmiş yazıçı haqqında təsəvvürlərimizi genişləndirdi. Onun yaradıcılığı və bu yaradıcılığın bəhrələri olan roman, povest, hekayə və pyeslər özünəməxsus bir yazıçının varlığından xəbər verir. Hüseynbala Mirələmov indiki çağda oxucuların əsərlərini ən çox mütaliə etdiyi yazıçılardan biridir.

"Axirətdən gələn zəng" iki hissəli dramatik komediyadır (müəllif onu belə adlandırıb). Komediya öz mahiyyətində sırf komik vasitələri deyil, dramatik məqamları da əks etdirə bilər. Təbii ki, bu cəhət komediya janrında yazılmış bir əsəri daha da oxunaqlı edir və əsər tamaşaya qoyularsa, maraqlı alınar.

Hüseynbala Mirələmov əksər əsərlərində yaşadığımız dövrün həqiqətlərini qələmə alır. Müasir dövr isə çox mürəkkəbdir. Artıq yeni sistemin doğurduğu olaylar, yeni münasibətlər, gerçəkliyin, ictimai həyatın ağrılı problemləri meydana çıxır və bu mənzərə insanlar arasında münasibətlərə də təsirsiz qalmır. "Axirətdən gələn zəng" ədəbiyyatın məhz bu münasibətlərə bədii reaksiyasını əks edirir.

Pyesdə dəbdəbəli bir həyat tərzi keçirən bir ailənin və bu ailəyə yaxın olan insanların taleyi izlənilir. Əsərin əsas qəhrəmanı kimdir, sualına cavab vermək o qədər də çətin deyil. Dövran pyesdə bir neçə funksiyanı yerinə yetirir, bu obraz hadisələrin mərkəzində durur, digər personajların taleyi də ondan asılıdır. Müəllif onu hadisələrin əsas "refrecatoru" kimi təqdim edir. O, pyesdə az görünür, amma baş verən hadisələrin heç biri onsuz başa gəlmir. Onun xarakteri, bir insan kimi hərtərəfli səciyyəsi tam açılmır.

Dövran kimdir? Adı yaxşı seçilib, çünki dövran, zəmanə onunçun yaranıb. Malı, mülkü, villaları, pulu başdan aşır. İstədiyi nə varsa, dərhal reallaşdırır, çünki pulu var, sərvəti var. Maddi imkanları onun insanlara münasibətində də əsas rol oynayır. Royanı məhz pulun gücünə sevgilisindən-həyat yoldaşından ayırır. Royanın kasıb həyat yoldaşı bu maddi gücün qarşısında müqavimət göstərə bilmir, ilim-ilim itir. İndi Roya-əvvəlcə məsum qız olan bu xilqət özü də get-gedə əxlaqi keyfiyyətlərini itirir, Dövrana xəyanət edir, onun əmisi nəvəsi Samirlə sevişir.

Dövran altmış yaşını qeyd etmək üçün bütün qohumlarını və dostlarını başına toplayıb. Hamı onu təbrik edir və Dövran açıqca bildirir ki, siz mənə dəstək olmasaydınız, isn bu məmləkətdə beş kişidən biri olmazdım. Odur ki, onlara sensasiya doğuran bir xəbər verir. "İstəmirəm məndən sonra didişəsiniz, bir-birinizlə üz-göz olasınız. Axı, bu əl çirki pul köpəkoğlu şeydi. Davam eləyirəm. Mənim vəsiyyətim təsdiq olunmuş şəkildə notariusdadır. Bir nüsxəsi də mənim evdəki kabinetimdə, şəxsi seyfimdədir. Burda olan hər kəsin o vəsiyyətnamədə payı var". Beləliklə, hamının fikrini bir yerə cəmləyir, bu adamların hər birinin düşüncəsinə pul hərisliyi köçür. Zahirən özlərini Dövrana sədaqətli, vəfalı göstərsələr də, gec-tez hamının iç üzü açılır. Çünki Dövran deyir ki, yalnız mən öləndən sonra siz vəsiyyətnamədə göstərilən məbləği ala bilərsiniz. Bu zaman otaqda partlayış əmələ gəlir və Dövran qısa qapanmadan yaranan bu vəziyyəti aradan qaldırmağa çalışır. Elektirik cərəyanı onun həyatına son qoyur. Bununla da pyesin I hissəsi başa çatır.

II hissədə isə Dövransız qalan qohum-əqrəbanın düşdüyü vəziyyətlə tanış oluruq. Onun vəiyyətnaməsi oxunur və kiməsə çatacaq pulun məbləği də açıqlanır. Tərəflər arasında razı qalan da var, narazı olanlar da. Adamların xarakteri, pula münasibətdə bir daha üzə çıxır. Ancaq bu zaman qəfil bir hadisə baş verir. Dövranın telefonundan zənglər gəlir və məlum olur ki, bir saat öncə məzara qoyulan Dövran ölməmişdir, onu xilas etmək olar. Dövranın yaxın dostu Elman onu xilas etmək, qəbirdən çıxarmaq istəyir, amma bu, heç kəsin ürəyincə deyil. Heç kim onun gəlişini arzulamır. Xüsusilə, Samir Elmanın qarşısını kəsir və beləliklə, Dövran nəinki fiziki mənada, həm də mənəvi mənada qohumlarının, vaxtilə onun kölgəsində daldalananların nəzərində artıq bir heçdir. Pyesin sonluğu isə simvolik məna daşıyır. Yenə də bir qəfil partlayış baş verir, işıqlar sönür, səhnə tam qaranlığa qərq olur. Pəncərədə kəfənə bürünmüş insan füqurunun silueti görsənir. Bu Dövrandır. Qorxudan heç kəs yerindən tərpənmir. Dövran da nə tərpənir, nə bir səs çıxarır. Birdən Dövran pəncərəni qəribə bir güclə vurub sındırır. Masa üzərində vəsiyyətnaməni görəndə dayanır. Yavaşca əyilib kağızı götürür, bir anlığa onu nəzərdən keçirir, sonra heç kimə baxmadan kağızı parça-parça edir. Səsini çıxarmağa cəsarət etməyən qohumlardan inilti ilə ahın qarışığından ibarət əzablı bir səs çıxır. Dövran heç nəyə fikir vermədən parça-parça elədiyi kağızı göyə sovurur".

Əsər beləcə irreal bir səhnə ilə bitir və müəllifin qayəsi, pyesdə irəli sürdüyü ideya pik nöqtəsinə çatır: puldan, var-dövlətdən, şan-şöhrətdən ötrü yaşamağın, bu yolda sərvət qazananların axırı yoxdur.

Yazıçının bu pyesdə təsvir etdiyi əhvalat onun "Mobil telefon" hekayəsində (sonluğu bir qədər fərqli olsa da) də süjetin əsasını təşkil edir. Ona görə də biz bu haqda söz açmaqdan sərf-nəzər edirik.